**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№381/1** **03 noyabr 2025-ci il**

**“Audit və hesabatlılıq: cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizə” kitabının nəşri barədə**

Qloballaşma, rəqəmsal texnologiyaların inkişafı və maliyyə sistemlərinin mürəkkəbləşməsi cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizədə (ƏL/TMM) yeni çağırışlar yaradır. Bu çətinliklər auditor fəaliyyətinin mürəkkəb və çoxsahəli xarakterini önə çıxarır və eyni zamanda ƏL/TM ilə mübarizənin səmərəliliyinin və bu sahəyə marağın artırılması, müstəqil auditə ictimai etimadın gücləndirilməsi və auditor peşəsinin cəmiyyətdə nüfuzunun yüksəldilməsi, audit və hesabatlılıq mexanizmlərinin ƏL/TM ilə mübarizədə xüsusi rolunun aşkara çıxarılması məqsədilə bu sahədə Pakistan İslam Respublikasının təcrübəsindən yararlanmaqla hazırlanmış “Audit və hesabatlılıq: cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizə” kitabının layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Audit və hesabatlılıq: cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizə” kitabı bəyənilsin və nəşr olunması məqsədəmüvafiq hesab edilsin (əlavə olunur).
2. Palatanın Maliyyə və texniki təminat idarəsinə (Q.Əhmədov, N.İsmayılov) tapşırılsın ki, Toplunun 600 (altı yüz) nüsxədə nəşr olunması təmin edilsin.
3. Palatanın İctimaiyyətlə əlaqə və informasiya şöbəsinə (M.Hüseynova) tapşırılsın ki, nəşr edildikdən sonra iki həftə müddətində bu kitabın aidiyyəti dövlət qurumlarına, habelə müvafiq kitabxanalara və ali təhsil müəssisələrinə, Auditorlar Palatasının əməkdaşlıq etdiyi yerli qurumlara, Palatanın üzvləri və əməkdaşlarına siyahı əsasında paylanması təmin edilsin.
4. “Audit və hesabatlılıq: cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizə” kitabının hazırlanmasında əməyi olan Palatanın əməkdaşları və üzvləri fərqləndirilsin.
5. Auditin hüquqi tənzimlənməsi və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə idarəsinə (E.İbrahimov) tapşırılsın ki, bu kitabın təqdimatının “9 dekabr – Korrupsiyaya qarşı Beynəlxalq Mübarizə Günü” ərəfəsində keçirilməsi təmin edilsin.
6. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**